Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika Uşaq Kitabxanası



# İlhamlı sənətkar

**Soltan Hacıbəyovun 100 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2019**

**Tərtibçilər:** **Könül Səmədzadə**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**İlhamlı sənətkar:** Soltan Hacıbəyovun 100 illik yubileyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. K.Səmədzadə; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2019. – 17 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

# Soltan Hacıbəyovun 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ilin may ayında görkəmli Azərbaycan bəstəkarı, tanınmış pedaqoq, dirijor və musiqi xadimi, SSRİ Xalq artisti, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, professor Soltan İsmayıl oğlu Hacıbəyovun anadan olmasının 100 illiyi tamam olur.

Soltan Hacıbəyov xalq sənəti xəzinəsindən və dünya musiqi təcrübəsindən faydalanaraq müxtəlif janrlarda özünəməxsus üslubda epik vüsəti, dərin lirizmi və dolğun məzmunu ilə səciyyələnən qiymətli əsərlər yaratmışdır. Azərbaycan simfonik musiqisinin təşəkkülü və inkişafında onun mühüm xidmətləri vardır. Geniş diapazonlu yaradıcılığa malik bəstəkar simfoniya, simfonik lövhə və süitaları, həmçinin opera və balet, dram tamaşalarına musiqi, mahnı və romansları ilə Azərbaycanın mədəniyyət xəzinəsini daha da zənginləşdirmişdir. Soltan Hacıbəyov respublikanın mədəni və ictimai həyatında daim yaxından iştirak etmiş, pedaqoq kimi gənc kadrların hazırlanması istiqamətində uzun illər səmərəli fəaliyyət göstərmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan bəstəkarlıq məktəbinin inkişafına layiqli töhfələr vermiş görkəmli sənətkar Soltan Hacıbəyovun anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqının təkliflərini nəzərə almaqla, SSRİ Xalq artisti Soltan Hacıbəyovun 100 illik yubileyinə həsr edilmiş tədbirlər planını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 1 aprel 2019-cu il.

# Həyat və yaradıcılığı

Anadan olmasının 100 illiyi tamamlanan görkəmli bəstəkar, pedaqoq, Xalq artisti, Dövlət mükafatı laureatı Soltan Hacıbəyovun Azərbaycan musiqisinin inkişafında özünəməxsus xidmətləri var. Etiraf etmək lazımdır ki, Soltan Hacıbəyovun adı çəkiləndə ilkin yada onun məşhur "Karvan" simfonik lövhəsi düşür. Bu musiqinin daxilində elə bir məlahət və təsir gücü var ki, onu sakit ürəklə dinləmək mümkün deyil. Həmin simfonik əsər ayrı-ayrı parlaq, lövhələrlə, cizgilərlə, rəngarəng musiqi vasitələrilə zəngindir. Soltan Hacıbəyov əsərə elə bir intonasiya, ritmik vüsət verib ki, ona qulaq asanda özünü təbiətin sonsuzluğunda-xüsusilə, hüdudsuz səhrada hiss edir, dəvə karvanlarının zınqırovlu səslərini eşidir, sanki bütün mənzərələri gözünlə görürsən. İnsanın qəlbinə, ruhuna sakitlik, rahatlıq və ifadə etməkdə çətinlik çəkdiyimiz xoş duyğular axır. Bu əsər, demək olar ki, dünyanın çox möhtəşəm salonlarında səsləndirilib. Amerikanın məşhur skripkaçısı Sidney Hort istedadlı Azərbaycan bəstəkarı Soltan Hacıbəyovun bu əsərini dinlədikdən sonra ona göndərdiyi məktubda yazırdı: "Sizin "Karvan"ınız çox cazibədardır. Bu gözəl əsərin gözəl instrumentovkası da müəllifə layiqdir. Həyat eşqi ilə dolu, dərin məzmunlu bu əsəri Çikaqo şəhərində Evanston orkestri böyük məharətlə ifa etmişdir".

Mütəxəssislər təsdiqləyir ki, "Karvan"ın  kompozisiyası və quruluşu özünün həmahəngliyi ilə seçilir. Hər dəfə qulaq asdıqca onun ahənginə qoşulub uzaqlara qanadlanmaq istəyirsən. Xüsusilə də Şuşaya. O, şəhərə ki, Soltan Hacıbəyov 1919-cu ildə bu qədim mədəniyyət mərkəzində anadan olmuşdur. Onun bəstəkar kimi yetişməsində, formalaşmasında xalq musiqisi ilə bərabər, atasının əmisi oğlu, Üzeyir Hacıbəyovun böyük xidməti olmuşdur. O, 1930-cu ildə Bakıya

köçərək məhz Üzeyir Hacıbəyovun ailəsində yaşayaraq təhsil almışdır. Ömrünün hər günü, hər anı böyük bəstəkarla bağlı olan Soltan Hacıbəyov musiqiyə bütün varlığı ilə bağlanmışdı. Bu səbəbdən də orta məktəbi bitirdikdən sonra musiqi texnikumuna daxil olaraq orada truba sinfində oxumuşdur. Hələ tələbə ikən Musiqili Komediya Teatrında dirijor vəzifəsində çalışan Soltan Hacıbəyov yaradıcılıq fəaliyyətinə də elə o illərdən başlamışdır. İlk əsəri xor və simfonik orkestr üçün yazdığı "Pioner" kantatası və "Qızılgül" adlı musiqili komediyadır. 1940-cı ildə Musiqili Komediya Teatrında tamaşaya qoyulan bu əsərin qazandığı uğur müəllifi daha da həvəsləndirdi. Əmisi Üzeyir bəyin məsləhəti ilə 1939-cu ildə Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsinə daxil olan Soltan Hacıbəyov Üzeyir Hacıbəyovdan və başqa tanınmış müəllimlərdən dərs alırdı.

Soltan Hacıbəyovun bəxti çox gətirmişdi. Şuşada doğulmuşdu, qanında, ruhunda musiqi istedadı var idi, Üzeyir Hacıbəyov kimi dahi bəstəkarın ailəsində böyümüş və ondan dərs almışdı. Digər tərəfdən isə yaradıcılığı Azərbaycan musiqi mədəniyyətinin ən səmərəli və intibah dövrünə düşmüşdü. Opera və Balet Teatrında Müslüm Maqomayevin "Nərgiz", Üzeyir Hacıbəyovun "Koroğlu" operaları göstərilir, eləcə də digər bəstəkarların simfonik və kamera instrumental musiqiləri yaranırdı. Bu dövrdə bir çox musiqi əsərlərinin əsasları qoyulurdu.

Konservatoriyada təhsil aldığı illərdə Soltan Hacıbəyov müxtəlif janrlarda əsərlər yaradaraq Azərbaycan mədəniyyətinə öz töhfəsini verirdi. "Çiçəklərin söhbəti", "Neft haqqında nəğmə" mahnıları, "Quşcuğaz", "Tənha yelkən ağarır" romansları və bir sıra simli kvarteti və simfonik əsərləri mədəniyyət tariximizə həkk olunurdu. İkinci dünya müharibəsi illərində Soltan Hacıbəyov həmkarları kimi, vətənpərvərlik

ruhunda yazılmış sözlərə musiqi yozumu verirdi. Onun "Döyüşçülər" nəğməsi və bir sıra əsgər marşları o dövrdə çox məşhur idi. Bəstəkarın istedadı hamının diqqətini çəkirdi. Görkəmli rus bəstəkarı R. Qliyer 1944-cü ildə Tiflisdə keçirilən musiqi ongünlüyündə Soltan Hacıbəyovun əsərlərinə qulaq asarkən öz fikrini belə dilə gətirmişdi: "Bu simfoniyalar tez yadda qalan, parlaq, maraqlı tematik materiala, yaxşı simfonik inkişafa malik bir əsərdir. Bunların hamısı onu göstərir ki, Soltan Hacıbəyov tezliklə böyük bəstəkar olacaqdır. Onun istedadlı olması şübhəsizdir, xüsusi məziyyətləri var, texniki biliyi aydındır. Ən başlıcası isə o, musiqinin milli mənbələri ilə sıx surətdə bağlıdır".

Soltan Hacıbəyovu keçmiş Sovetlər İttifaqının, demək olar ki, bütün müttəfiq respublikalarında tanıyırdılar. Hətta ona müraciət də edirdilər. Məsələn, 1945-ci ildə Türkmənistan Dövlət Opera və Balet Teatrı Soltan Hacıbəyova "Kəminə və qazı" operasını yazmağı sifariş edib. Bəlkə də bu əsər üzərində işləyərkən bəstəkar karvan haqqında çox düşündüyündən sonralar "Karvan" simfonik lövhəsini yaratdı və bu əsəri də dahi Üzeyir Hacıbəyova ithaf etdi. "Karvan"ın da qədəmləri çox uğurlu oldu. Demək olar ki, dünyanın ən möhtəşəm konsert salonlarına səyahət etdi.

Soltan Hacıbəyovun yaradıcılığında uşaqlar üçün yazdığı əsərlər xüsusi yer tutur. O, "İsgəndər və çoban" adlı uşaq operası yazdı. Balacalar üçün nəzərdə tutulmuş mahnılar, demək olar ki, hər gün ifa olunurdu. "Oynaq topum", "Layla", "Bənövşə", "Bahar gəldi", "Yolka", "Pioner marşı" və s. bu kimi əsərlər əslində milli uşaq musiqi ədəbiyyatının ən gözəl nümunələridir.

Soltan Hacıbəyov çox məhsuldar bəstəkar olub. 1950-cı ildə yaratdığı "Gülşən" baleti bu sahədə ilk əsərlərdən sayılır. Əsər ilk dəfə 1950-cı ildə tamaşaya qoyuldu, iki il sonra isə Dövlət mükafatına layiq görüldü. Onun musiqi dili, melodiyası,

təravəti, ritm müxtəlifliyi, coşqunluğu, milli səciyyənin dərin və parlaq ifadəliyi haqqında o dövrün mətbuatında dəyərli fikirlər söylənildi. Soltan Hacıbəyov xalq musiqisindən istifadə edərək maraqlı bir əsər yaratmışdı. Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə “Gülşən”dən müəyyən parçalar da göstərilmiş, müəllifin başqa simfonik əsərləri səslənmişdir. Demək olar ki, Soltan Hacıbəyovun müəllifi olduğu əsərlər istər tamaşaçılar, istərsə də mütəxəssislər tərəfindən maraqla qarşılanırdı. Onun haqqında düşünəndə heyrətlənirsən ki, gecə-gündüz bilmədən çalışıb. Yoxsa bu boyda gözəl əsərləri yazmağa necə vaxt tapıb?! “Vətən süitası”, “Məzəli rəqs”, “Yumoristik səhnəcik” kimi əsərləri mahnı və rəqs ansambılları üçün nəzərdə tutulmuşdur.

Ötən əsrin ortalarında simfonik orkestr üçün yazdığı “Üvertüra”sı Soltan Hacıbəyov yaradıcılığının əsas mahiyyətini səciyyələndirirdi. Çox güman ki, onun bu janrı da belə maraqlı əsər yaratmasına səbəb Üzeyir Hacıbəyovun məşhur “Koroğlu” operasının üvertürası böyük təsir göstərmişdir. Əlbəttə, o dövrdə Niyazi, Qara Qarayev, Cövdət Hacıyev tərəfindən müxtəlif süitalar yaradılırdı. Dövrün məşhur bəstəkarı D. Şostakoviç Soltan Hacıbəyovun bu əsəri ilə bağlı demişdir: “Əsərdə nurlu bir nikbinlik, ritm, məqsədəuyğunluq Motsartın bəzi opera uvertüralarını və ya Qlinkanın “Ruslan” uvertürasını xatırladır”. Əslində, Soltan Hacıbəyovun bu əsərində xalq ruhu çox güclü idi. Onun musiqisi mövzuya deyil, xalqa və onun milli ruhlu həyat köklərinə söykənirdi.

Ötən əsrdə yaşayıb-yaratmış Soltan Hacıbəyovun sorağı müxtəlif ölkələrdən gəlirdi. Bolqarıstanda, Çexoslovakiyada olması onu bu ölkələrlə bağlı əsərlər yazmağa səsləyirdi. 1957-ci ildə musiqi dünyasına bəxş etdiyi “Bolqar” süitası belə maraqlı əsərlərdən biri oldu. Əsərlərindəki cazibə və təsirə görə bəstəkarı tez-tez xarici ölkələrə dəvət edirdilər. Hindistana səfəri

də onun yaradıcılığında xüsusi bir mərhələ təşkil edib. 1965-ci ildə simli kvartet üçün bəstələdiyi “Hind mövzuları üzərində süita”sı ona böyük şöhrət gətirdi. Bəstəkarın gözəl əsərlərindən biri də “Konsert”i isə daha müasir və obrazlı idi. Elə bu yaradıcılıq üslubuna görə də ona “ustad” deyirdilər. Haqqında, demək olar ki, o dövrün bütün musiqişünasları, nəzəriyyəçiləri, məşhur bəstəkarları xoş sözlər söyləyirdilər. Azərbaycan musiqisinin inkişafında özünəməxsus xidmətləri olan Soltan Hacıbəyovun yaradıcılığında teatr həyatı da xüsusi yer tutur. Uzun illər Milli Dram Teatrının səhnəsində tamaşaya qoyulan əsərlər üçün musiqi bəstələmişdir. C.Cabarlının, S.Vurğunun, S.Axundovun, İ. İbrahimovun, S.Rəhmanın, M.Hüseynin və başqa ədiblərin pyeslərinin musiqisini unudulmaz bəstəkarımız bəstələmişdir. Yaradıcılığının çiçəklənmə dövrü Azərbaycan musiqisinin inkişaf etdiyi zamanla üst-üstə düşdüyündən onun yazdığı əsərlər nəinki Azərbaycanın, eləcə də dünya musiqisinin nailiyyətləri idi.

Harmonik melodiyanın ifadə vasitələrindən istifadə edərək muğam cərgəsi üzərində pillələr quran Soltan Hacıbəyov “Şüştər” muğamını çox sevirdi və bir çox mahnı və operettalarında, simfoniyalarında ondan məharətlə istifadə edirdi. Bütün bunlardan sonra Soltan Hacıbəyov heç nə yazmasaydı, təkcə “Karvan” simfonik lövhəsi ilə musiqi tariximizdə əbədi qalası idi. “Karvan”ın qəlbi kövrəldən sədası gəldikcə göz önündə nələr canlanmır?! Sanki sarbanı itkin düşmüş bu “Karvan”ın sırasını axtarıb tapıb çox da uzaq olmayan, ancaq əlimiz və ünümüz yetməyən Şuşaya getmək istəyirik.

## Yubiley tədbirlərinin keçirilməsi

Musiqi tariximizdə haqlı olaraq tutduğu fəxri yer Soltan Hacıbəyovu bütün musiqi mədəniyyətinin iftixarı olan görkəmli Azərbaycan bəstəkarlarının sırasına çıxarmışdı. Bu gün musiqisi dünyaya nur saçan, Azərbaycan musiqisi tarixində ən önəmli yerlərdən birini tutan Soltan Hacıbəyovun anadan olmasının 100 illik yubileyi geniş şəkildə qeyd olunur. Tədbirlərin keçirilməsində məqsədimiz Soltan Hacıbəylinin zəngin musiqisinin oxucular arasında daha da sevilməsinə xidmət etməkdən ibarətdir. Respublikamızın bir çox təhsil ocaqlarında, musiqi məktəblərində, kitabxanalarda və bir sıra mədəniyyət ocaqlarında silsilə tədbirlərin keçirilməsinə start verilmişdir. Həmçinin F.Köçərli adına Resbublika Uşaq Kitabxanasında da Soltan Hacıbəyli yaradıcılığının geniş təbliği üçün bir sıra tədbirlər planı hazırlanmışdır. İlk olaraq kitabxanada sərgi təşkil olunur. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: “S.Hacıbəyli – 100”, “Musiqisi nur saçan bəstəkar”, “Unudulmaz bəstəkar”, “Görkəmli simfoniyaçı”, “Görkəmli sənətkar”, “İlhamlı sənətkar”, “Sənətkarın xatirəsi” və s. Sərginin nümunəsini veririk:

1. *“Musiqisi nur saçan bəstəkar”;*
2. *Görkəmli insanların S. Hacıbəyli haqqında söylədikləri;*
3. *Musiqi əsərlərinin, musiqi vallarının nümayişi;*
4. *Foto sərgi.*

## Görkəmli şəxsiyyətlərin Soltan Hacıbəyli haqqında söylədikləri fikirlər

Öz xalqının incəsənətinə, musiqi folkloruna canlı professional maraq göstərmiş bəstəkar bütün yaradıcılığı boyu bu tükənməz xəzinədən qidalanmışdır.

**Aqşin Əlizadə,**
*Əməkdar incəsənət xadimi*

Sənət aləminə gəldiyi gündən öz dəst-xətti ilə tanınan Soltan Hacıbəyov musiqi yaradıcılığının hansı janrına müraciət edirsə-etsin, həmişə müvəffəqiyyət qazanmış, dəyərli əsərlər yaratmışdır. Elə buna görə də geniş dinləyici kütləsi bəstəkarın hər bir əsərini rəğbətlə qarşılamışdır. S.Hacıbəyov görkəmli bəstəkar kimi təkcə ölkəmizdə deyil, onun sərhədlərindən çox-çox uzaqlarda da tanınmış və sevilmişdir.

**Süleyman Ələsgərov,**
*bəstəkar*

S.Hacıbəyov Azərbaycan musiqi mədəniyyəti tarixində istedadlı müəllim, musiqi-ictimai xadim kimi də iz buraxmışdır.

**Lalə Kərimova,**
*musiqişünas*

Bəstəkarın adı Azərbaycan musiqi mədəniyyəti tarixində, çoxmillətli sovet incəsənətində var qüvvəsini, qəlbinin hərarətini doğma xalqın musiqi inkişafına və tərəqqisinə həsr edən bir sənətkar kimi qalmışdır. O, musiqisi ilə özünə gözəl abidə qoymuşdur.

**Aida Tağızadə,**
*sənətşünaslıq namizədi*

S.Hacıbəyovun çoxcəhətli yaradıcılığı Azərbaycan musiqisi tarixində bir sıra janrların mənimsənilməsi və milli nümunələrin meydana gəlməsi, musiqimizin məzmun dairəsinin genişlənməsi, yeni mövzularla zənginləşməsi prosesini əyani şəkildə əks etdirir.

**Şəhla Mahmudova,**
*sənətşünaslıq namizədi*

Soltan Hacıbəyovun anadan olmasının 100 illiyi münasibətilə F.Köçərli adına Respublika Uşaq Kitabxanasında oxucularla söhbət keçirilir. Tədbirə musiqi məktəbinin müəllimləri, məktəblilər dəvət olunur. Kitabxanaçı tədbiri açıq elan edir.

SSRİ xalq artisti, bəstəkar Soltan Hacıbəyovun çoxşaxəli yaradıcılığının uzunömürlü bəhrələri çoxdur. Lakin bütün bunlarla yanaşı, o, ilk növbədə simfoniyaçı bəstəkarlarımızdan sayılır. Bəstəkarın "Skripka ilə simfonik orkestr üçün konsert", simfonik musiqi sahəsində ilk müvəffəqiyyətli əsəri kimi qiymətləndirilmiş və 1944-cü ildə Tibilisidə keçirilmiş Zaqafqaziya incəsənəti ongünlüyündə böyük rəy doğurmuş Birinci simfoniyası, iki il sonra yaratdığı İkinci simfoniyası, "Karvan" simfonik lövhəsi, "Bayram uvertürası", nəhayət, respublika Dövlət mükafatı ilə qeyd olunmuş "Böyük simfonik orkestr üçün konsert"i təkrarolunmaz nümunələrdir. Bu, bəlkə də ona görədir ki, S.Hacıbəyov əsərləri üzərində zövqlə işləmiş, yaradıcılıq məhsullarının bədiiliyinə, forma və məzmun gözəlliyinə yüksək tələbkarlıqla yanaşmışdır. Təsadüfi deyil ki, görkəmli sovet bəstəkarı R.Qlier onu "böyük zövqə malik bəstəkar" adlandırmışdır.

*Tədbir musiqisi S.Hacıbəyova aid olan "Aydın" tamaşasından bir parça ilə bitir.*

S.Hacıbəyov musiqisinin geniş təbliği üçün keçirilən tədbirlərdən biri də musiqili ədəbi-bədii gecədir. Musiqili ədəbi-bədii gecəyə kitabxanaçı bir ay qabaqcadan hazırlaşır. Bu tədbir oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Tədbirin keçirilməsində əsas məqsəd oxucuları bəstəkarın həyat və yaradıcılığı ilə yaxından tanış etmək, onun bəstələrini dinləmək, sevmək və bu musiqilərini təbliğ etməkdən ibarətdir. Tədbirə bəstəkarlar, musiqişünaslar, İncəsənət Universiteti və Milli Konservatoriyanın müəllim və tələbə kollektivləri, bəstəkarın yaxın qohumları dəvət olunur. Tədbir iki hissədən ibarətdir. Birinci hissədə bəstəkarın həyat və yaradıcılığı haqqında çıxışlar dinlənilir, qonaqlara söz verilir. İkinci hissədə bəstəkarın bəstələrindən ibarət musiqi nümunələri səsləndirilir. Tədbirin maraqlı və yaddaqalan keçməsi üçün S.Hacıbəyovun dram tamaşalarına yazdığı "Əliqulu evlənir" tamaşasından parçalar səsləndirilir. Azərbaycan musiqisi tarixində **"Görkəmli sənətkar"** adlı tədbirin ssenarisini nümunə üçün veririk:

**I aparıcı:** SSRİ xalq artisti Soltan Hacıbəyovun yaradıcılığı – XX əsr Azərbaycan musiqi mədəniyyətinin parlaq səhifələrindən biridir. O, görkəmli bəstəkar, pedaqoq, ictimai xadim olmaqla, müxtəlif janrlarda milli musiqinin inkişafında müstəsna rol oynamışdır. Yenilikləri ilə seçilən S.Hacıbəyovun iri həcmli simfonik və musiqili-səhnə əsərləri dəfələrlə tədqiqat obyekti olmuşdur. Bu sahədə əlyazmaları, demək olar ki, heç araşdırılmayıb. Bu il 100 illik yubileyin qeyd olunması sənətkarın fəaliyyəti, musiqisi haqqında daha dolğun təsəvvür yaratmağa imkan verecəkdir.

Müasirlik ruhunu dərindən duyan bir bəstəkar kimi S.Hacıbəyov öz musiqisində gerçəkliyin rəngarəng hadisələrini təcəssüm etdirməyə çalışmışdır. Dövr ilə bu həmahənglik onun

musiqisinin obraz-emosiya quruluşunda özünü göstərir. Onun musiqisi dolğunluğu, parlaq boyaları ilə fərqlənir.

S. Hacıbəyov epik istedada malik bir sənətkardır. S. Hacıbəyov Azərbaycan musiqi mədəniyyəti tarixində istedadlı müəllim, musiqi-ictimai xadim kimi də iz buraxmışdır. Bu çoxcəhətli fəaliyyətində Soltan Hacıbəyovun gənc musiqiçilərə münasibəti, onların qayğısına qalması diqqətəlayiqdir. Uzun illər Ü. Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında müəllim, dosent, professor, rektor kimi fəaliyyət göstərən, Bəstəkarlar İttifaqının katibi olan S. Hacıbəyov həmişə gənclərlə yaxın ünsiyyətdə idi. O, Azərbaycan bəstəkarlarının gənc nəslinə böyük inamla yanaşır, hər cür yaradıcılıq axtarışlarına, yeniliyə səy göstərmələrini alqışlayırdı.

S. Hacıbəyovun alətşünaslıq sinfində respublikamızın bir çox bəstəkarları və musiqişünasları təhsil almışlar. Tələbələri onu zəhmətsevər, özünə qarşı tələbkar, musiqiyə böyük tələbkarlıqla yanaşan bir sənətkar kimi xatırlayırlar. S.Hacıbəyov özünə xas olan bu keyfiyyətləri tələbələrində də tərbiyə etməyə çalışırdı. Konservatoriyaya rəhbərlik edən S.Hacıbəyov yüksək ixtisaslı musiqiçilərin yetişdirilməsi üçün tədris prosesini yaxşılaşdırmaq sahəsində bir çox tədbirlər həyata keçirmişdir.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında Soltan Hacıbəyovun xidmətləri layiqincə qiymətləndirilmiş o, SSRİ xalq artisti fəxri adına, SSRİ və Azərbaycan SSR Dövlət mükafatlarına layiq görülmüş, iki dəfə Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif olunmuşdur. Respublikamızın musiqi təhsili ocaqlarından biri Sumqayıt şəhərindəki orta ixtisas musiqi məktəbi S.Hacıbəyovun adını daşıyır.

Bu gün Azərbaycan musiqi elminin əsas vəzifələrindən biri də adı qızıl hərflərlə musiqi mədəniyyətinə yazılan bəstəkarların əlyazmalarını diqqətlə araşdırmaq və öyrənməkdən ibarətdir.

Onlardan biri də yuxarıda dediyimiz kimi məhz Soltan Hacıbəyovdur. Sənətkarın bir çox kamera əsərləri əlyazmaların dəyərli hissəsinə aid oluna bilər. Bu, vokal, violino ilə fortepiano, simli kvartet, fortepiano üçün müəllif işləmələri, xalq havalarının nota köçürmə və işləmələri, mahnılar, eskizlər, fraqmentlər, eləcə də türkmən xalq mahnılarının not yazılarıdır. Təbii ki, bu əsərlərin ayrıca olaraq təhlili bəstəkarın yaradıcılığına yenidən baxmağa, sənətkarı yalnız simfonik, musiqili-səhnə yox, həm də parlaq kamera əsərlərinin müəllifi kimi təqdim etməyə imkan verəcəkdir.

Eyni zamanda, bu əlyazmaların təhlili bəstəkarın yaradıcılıq və sənət yoluna işıq salacaqdır.

*Sözləri Mirmehdi Seyidzadəyə, musiqisi S.Hacıbəyova aid "Oynaq topum" adlı musiqi səslənir.*

Oynaq topum, oynaq topum,
Əlvan rəngli, qıvraq topum.
Atdım-tutdum, düşdün yerə,
Qaçdın, getdin birdən-birə

Oynaq topum, düşdü yola,
Döndü sağa, döndü sola.
Uzaqlaşma məndən topum,
Qaçma, dayan, səni tutum.

## Ədəbiyyat siyahısı

**Soltan Hacıbəyovun 100** illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (1 aprel 2019-cu il) // Xalq qəzeti. - 2019. - 2 aprel. - № 69. - S. 2 ; Respublika. - 2 aprel. - № 69. - S. 1.

**Abbaslı T.** Soltan Hacıbəyov : Azərbaycanımızın böyük sənət "Karvan" ının müəllif-sarbanı // Mədəniyyət. - 2017. - 1 sentyabr. - **№ 68**. - S. 13.

**Bayramova S.** Soltan Hacıbəyovun kamera musiqisi və mətnşünaslıq problemləri... : Soltan Hacıbəyov - 100 // Qobustan. - 2019. - **№ 1**. - S. 80-82.

**Bayramova Z.** Milli musiqimizin təşəkkülü və inkişafında xidmətləri olan sənətkar : Dövlət başçısının Sərəncamı ilə Azərbaycan bəstəkarı Soltan Hacıbəyovun 100 illik yubileyi qeyd ediləcək // Səs. - 2019. - 3 aprel. - **№ 58**. - S. 10.

**Əhmədalılar T.** Hacıbəyovlar Soltanı : bəstəkar, SSRİ xalq artisti Soltan Hacıbəyov haqqında // Mədəniyyət. - 2014. - 9 may. - **№ 35**. - S. 11.

**Mükərrəmoğlu M.** Bu "Karvan"ın yolu uzaqdır : Soltan Hacıbəyov - 95 // Xalq qəzeti. - 2014. - 8 avqust. - **№ 168**. - S. 7.

# İlhamlı sənətkar

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 29
Çapa imzalanmışdır: 20.05.2019
Tirajı:100
Pulsuz